Ulduz Fərhad Qəhrəmanova

filologiya üzrə fəlsəfə doktoru,

Azərbaycan Dövlət Pedaqoji Universiteti,

"Ədəbiyyat" kafedrasında dosent əvəzi

ulduzkahraman1@gmail.com

Orcid İD: 0009-0003-4418-9319

XIX ƏSRIN SONU XX ƏSRIN ƏVVƏLLƏRINDƏ AZƏRBAYCAN MILLI MAARIFÇILIK KONSEPSIYASıNDA DINI INANC SISTEMI

Annotasiya:

Elmi məqalədə tədqiqatçı XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan maarifçiliyinin milli maarifçilik konsepsiyası üzərində qurulması məsələsinə aydınlıq gətirmişdir. Elmi təhlillərdən məlum olur ki, Azərbaycan milli maarifçilik konsepsiyası (dünyagörüşü) ağıl, elm, təhsil ideyalarının Quranla vəhdətindən, yəni dünyəvi və dini elmlərin sintezindən yoğrulması üzərində qurulmasına tədqiqatçı aydınlıq gətirmişdir. Yəni milli maarifçi realistlərin İntibah uğrunda mübarizədə "Quranla da silahlanması", dini tərbiyəni əxlaqi, milli, mənəvi tərbiyənin tərkib hissəsi kimi qəbul etməsinin məqalədə gətirilən nümunələrdə şahidi oluruq.

Açar sözlər: XIX əsrin sonu XX əsrin əvvəlləri, milli maarifçilik konsepsiyası, dini inanc sistemi

Abstrakt:

Azərbaycan maarifçiliyi milli maarifçilik konsepsiyası üzərində qurulmuşdur. Azərbaycan milli maarifçilik konsepsiyası (dünyagörüşü) ağıl, elm, təhsil ideyalarının Quranla vəhdətindən (dünyəvi və dini elmlərin sintezindən-U.Q.) silahlanmaqla qəbul edilmişdir. Yəni milli maarifçi realistlərin İntibah uğrunda mübarizədə "Quranla da silahlanması", dini tərbiyəni əxlaqi, milli, mənəvi tərbiyənin tərkib hissəsi kimi qəbul etməsinin şahidi oluruq. Yəni dini inanc sistemi tərbiyənin təməl daşı hesab edilirdi. Çünki milli maarifçilərə görə, İslami dəyərlər həqiqi insanlığın, həqiqi yaşayışın təməl prinsipi idi.

Azərbaycan maarifçi realist ədəbiyyatın tarixi bir inkişaf yolu XIX əsrin sonu XX əsrin əvvəllərini əhatə edir. Əslində digər yaradıcılıq metodlarından fərqli olaraq milli marifçilik realist ədəbiyyatda, ümumiyyətlə, milli keyfiyyətlərə malik vətəndaşdan söhbət gedir. Düzdür, dini mənsubiyyət "milli keyfiyyət" deyil, lakin milli keyfiyyəti tamalayan keyfiyyətdir. Əsl milli vətəndaş olmanın sirri dini dünyagörüşü ilə elmi dünyagörüşün harmoniyasını tənzimləmək üzərində qurulmasından ibarətdir. Dini dünyagörüş öz mənbəyini Qurandan, Məhəmməd Peyğəmbərin hədislərindən götürür.

Tarixə nəzər salsaq görərik ki, XX əsrin əvvəlləri 1905-1907-ci illər rus inqilabı milli ictimai düşüncə tərzində sosial demokratiyanın və marksist fikrin rezonansının təsirini özündə əks etdirmişdir. XIX əsrin sonu XX əsrin əvvəllərinin maarifçi realistlərinin yaradıcılığında

islami dəyərlərə ayrılan yeri “dini tül” pərdəsi kimi şərh etmək meyli nəzərə çarpırdı. “Həqiqi İslama inanan maarifçi yazıçılar üçün isə məqsəd dini və Quranı müasirləşdirmək deyildi, bəlkə əksinə cəmiyyəti müasirləşdirmək üçün dinin və Quranın cəmiyyətdəki təsir gücündən istifadə etmək idi”.

Açar sözlər: XIX əsrin sonu XX əsrin əvvəlləri, milli maarifçilik konsepsiyası, dini inanc sistemi

Azərbaycan maarifçiliyi milli maarifçilik konsepsiyası üzərində qurulmuşdur. Azərbaycan milli maarifçilik konsepsiyası (dünyagörüşü) ağıl, elm, təhsil ideyalarının Quranla vəhdətindən (dünyəvi və dini elmlərin sintezindən-U.Q.) silahlanmaqla qəbul edilmişdir. Yəni milli maarifçi realistlərin İntibah uğrunda mübarizədə “Quranla da silahlanması”, dini tərbiyəni əxlaqi, milli, mənəvi tərbiyənin tərkib hissəsi kimi qəbul etməsinin şahidi oluruq. Yəni dini inanc sistemi tərbiyənin təməl daşı hesab edilirdi. Çünki milli maarifçilərə görə, İslami dəyərlər həqiqi insanlığın, həqiqi yaşayışın təməl prinsipi idi.

Azərbaycan maarifçi realist ədəbiyyatın tarixi bir inkişaf yolu XIX əsrin sonu XX əsrin əvvəllərini əhatə edir. Milli maarifçi realizmin məşhur nümayəndələri arasında N.Nərimanov, S.M.Qənizadə, İ.Musabəyov, S.S.Axundov, Ə.Haqverdiyev və b. göstərə bilərik. Ə.Haqverdiyev maarifçi realizmindən tənqidi realizmə keçid prosesinin nümayəndəsidir. Belə ki, Ədəbiyyatşünas Təyyar Salamoğluya görə, Ə.Haqverdiyevin yaradıcılığının 1892-1906-cı illəri maarifçi realizm mərhələsinin əhatəsinə düşür. Bu dövrdə daha çox o dramaturji yaradıcılıqla məşğul olmuşdur. Və cəmi 2 hekayə yazmışdır və həmin hekayələrində Ə.Haqverdiyev maarifçi realizm nümayəndəsi kimi çıxış etmişdir.

1. “Ata və oğul” hekayəsi
2. “Ayın şahidliyi” hekayəsi

Əslində digər yaradıcılıq metodlarından fərqli olaraq milli marifçilik realist ədəbiyyatda, ümumiyyətlə, milli keyfiyyətlərə malik vətəndaşdan söhbət gedir. Düzdür, dini mənsubiyyət “milli keyfiyyət” deyil, lakin milli keyfiyyəti tamalayan keyfiyyətdir. Əsl milli vətəndaş olmanın sirri dini dünyagörüşü ilə elmi dünyagörüşün harmoniyasını tənzimləmək üzərində qurulmasından ibarətdir. Dini dünyagörüş öz mənbəyini Qurandan, Məhəmməd Peyğəmbərin hədislərindən götürür.

Tarixə nəzər salsaq görərik ki, XX əsrin əvvəlləri 1905-1907-ci illər rus inqilabı milli ictimai düşüncə tərzində sosial demokratiyanın və marksist fikrin rezonansının təsirini özündə əks etdirmişdir. XIX əsrin sonu XX əsrin əvvəllərinin maarifçi realistlərinin yaradıcılığında islami dəyərlərə ayrılan yeri “dini tül” pərdəsi kimi şərh etmək meyli nəzərə çarpırdı. “Həqiqi İslama inanan maarifçi yazıçılar üçün isə məqsəd dini və Quranı müasirləşdirmək deyildi, bəlkə əksinə cəmiyyəti müasirləşdirmək üçün dinin və Quranın cəmiyyətdəki təsir gücündən istifadə etmək idi” (7, s.282).

XIX əsrin sonu XX əsrin əvvəllərindəki dövrün bütün maarifçilərinin yaradıcılığına nəzər salsaq görərik ki, bu dövrdə Azərbaycan maarifçiliyinin dindarlaşması, “Quranla silahlanması” nəzəriyyəsi praktik şəkildə bədii əsərlərdə etiraf olunsa da, bədii əsərlərin nəzəri təhlillərinə gəldikdə isə maarifçi realistin təhlili ateist ideologiyası aspektində aparılırdı. Yəni maarifçi realistlərin əsərlərinin nəzəri təhlili “ateist tendensiyasına” tabe tutulurdu.

Bu günkü azərbaycançılığın milli ideologiya kimi formalaşmasında XIX əsrin sonu XX əsrin əvvəllərindəki ictimai və estetik fikrin gerçəkləşməsində Nəriman Nərimanovun da mühüm xidmətləri vardır. Din və millət uğrunda mübarizə N.Nərimanovun da ictimai fəaliyyətinin təməl prinsiplərini təşkil edirdi. Və yaradıcılığında milli və dini özünəməxsusluğu inkar etmir, vəhdət halında götürürdü. Hətta milli özünüdərkə keçməkdə dini özünəməxsusluğu dərk etməyin tərəfdarı idi. Nərimanovun təfsirində dini düşüncə bəşəriliyi simvollaşdırır. "Bəşəriliyə gedən yol milli varlığın özünüdərkindən, özünütanımasından keçir" (7, 285) Nərimanovun düşüncəsində ümmətçilik ümumbəşərilik statusu qazanmışdır.

Ədəbiyyatşünas Təyyar Salamoğluya əsasən, "Azərbaycançılığın prinsip düsturu ittihadçılıqdır. İttihadın əsas bağlantısı:

1. Gendaşlıq (qandaşlıq)
2. Dindaşlıq

Yəni: gendaşlıq (qandaşlıq)+ dindaşlıq= İttihad=Azərbaycançılıq

Yəni, N.Nərimanovun ümmətçiliyinin və milli düşüncəsinin əsasında maarifçilik tendensiyası dayanır. Belə ki, Nərimanovun milli dil, milli məktəb, milli mətbuat uğrundakı çağırışlarının mahiyyətində dini və milli birlik dayanırdı. Əslində publisist fəaliyyəti ilə birlikdə Nərimanovun yaradıcılığı "özünütanıma" uğrunda mübarizənin ifadəsidir. Nərimanova görə, özünütanımağa gedən yollardan biri millətin öz dininə münasibətindən keçir. Nərimanov öz soydaşlarını həqiqi İslam ümməti kimi görmək istəyir. Onları İslama həqiqi məhəbbət bəsləməyə, onu ürəkdən bağlanmağa, "Qurani-Kərim"in həqiqi mənasını dərk etməyə, şəriət ehkamlarına və Məhəmməd Peyğəmbərin hədislərinə əməl etməyə çağırır.

Nərimanova görə, İslam ehkamlarının şəxsi mənafe naminə təhrifi və yozulması yolverilməzdir. Belələrini "millətə xəyanət edən şəxslər" sırasında görürdü. Nərimanov dini və milli mənafeni bir-birini tamamlayan sosial amil kimi qəbul edirdi. Lakin İslam dininə, bütün dinlərə münasibətdə Nərimanovun mövqeyi ədəbiyyatşünaslıqda bir qayda olaraq tərs yozulmuş, təhlil edilmişdir. Yaxud zamanın sosial sifarişinə əsasən bilərəkdən təhrif edilmişdir. Və sənətkar dinlərə inkarçı mövqedən yanaşan ədib kimi dəyərləndirilmişdir. Bu mövqedən yanaşma təbii ki, Nərimanova "ateist obrazı" donunu geyindirmişdir. Yəni birmənalı olaraq Nərimanovu ateist elan etmişlər. Bu da Sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığında sənətkarların yaradıcılığını ateist dünyagörüşünün bədii ifadəsi kimi tədqiq, təhlil predmetinə çevirməyi sosial sifariş xarakter daşımasından irəli gəlir. Şübhəsiz ki, Nərimanovun da ateist elan edilməsi Sovet dövrünün sifarişindən irəli gəlirdi.

Ədəbiyyat:

1.Xalid Əlimirzəyev, (2008) "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", Bakı

2. Mir Cəlal, Pənah Xəlilov,(2005) "Ədəbiyyatşünaslığın əsasları", Bakı, Çaşıoğlu

3. Məmməd Əliyev, (2012) "Ədəbiyyat nəzəriyyəsinin əsasları", Bakı

4. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı

5.Nizaməddin Şəmsizadə, (2012) "Ədəbiyyat nəzəriyyəsi", Bakı

6. Rafiq Yusifoğlu, (2001) "Ədəbiyyatşünaslığın əsasları", Bakı

ISSN: 2181-4341, IMPACT FACTOR (RESEARCH BIB) – 9.145, SJIF – 5,431

7. Təyyar Salamoğlu (2021), XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri , Bakı